# Bakı Limanı: Avropa, Orta Asiya və Çin arasında təbii körpü

**Azərbaycanın qədim İpək Yolu boyunca ticarət mərkəzi kimi tarixi mövqeyini bərpa etməsi, Şərqlə Qərbi, habelə Şimalla Cənubu birləşdirən əsas nəqliyyat dəhlizlərinin yolu üzərində yerləşməsi respublikamızın Avrasiyanın regional mərkəzinə çevrilməsinə, qloballaşma prosesləri baxımından ölkəmizin həm regional, həm də beynəlxalq layihələrdə rolunu və əhəmiyyətini daha da artırır.**

Prezident İlham Əliyevin Azərbaycanın regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməsi strategiyasının tərkib hissəsi olan, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi respublikamızın tranzit imkanlarının genişləndirilməsində həlledici rola malikdir.

Bir müddət əvvəl Ələt qəsəbəsində 1000 hektar ərazidə, ümumi dəyəri ilkin olaraq 2 milyard manat olmaqla “Azərbaycan-Çin Azad İqtisadi Sənaye Şəhərciyi”nin yaradılması sahəsində əməkdaşlıq haqqında saziş imzalanması bu sahədə atılan ciddi addım kimi qiymətləndirilir.

Sazişə əsasən Azərbaycanda yaradılmış əlverişli biznes və investisiya mühitindən, eləcə də mövcud xammal və təbii resurslardan səmərəli istifadə etməklə qeyri-neft sektorunun davamlı inkişaf etdirilməsi, müasir texnologiyaların və qabaqcıl idarəetmə təcrübəsini tətbiq etməklə ağır, yüngül sənaye, tikinti, yüksək texnologiyalar və kənd təsərrüfatı sahələrinin qurulması, Logistika Mərkəzlərinin və xidmət sahələrinin yaradılması, “Made in Azerbaijan” brendi ilə rəqabətqabiliyyətli ixracyönümlü məhsulların potensialının artırılması, eyni zamanda, potensial Çin şirkətlərinin Azərbaycan bazarlarına inteqrasiya olunması və gələcəkdə “Sənaye Şəhərciyində” istehsal olunacaq məhsulların xarici ölkələrin bazarlarına ixrac olunması əsas hədəflər olaraq müəyyən olunub. Bu saziş üzrə layihənin icra müddəti tam başa çatdıqdan sonra minlərlə yeni iş yerlərinin açılması, ölkəmizin iqtisadi və ixrac potensialının gücləndirilməsinə və “Made in Azerbaijan” brendinin dünya bazarlarına inteqrasiya olunmasına geniş zəmin yaradacaq.



Bu günlərdə Çinin Sian şəhərindən yola düşən və Bakı-Tiflis-Qarsla Ankaraya çatan “China Railway Express” yük qatarı Türkiyədən Avropaya çatıb. 42 konteynerdən ibarət “China Railway Express” blok qatarı İstanbul boğazından keçməklə polad magistrallar üzərində Avropaya hərəkət edən ilk yük qatarıdır. Bakı-Tiflis-Qars dəmir yolu xətti Çinlə Türkiyə arasında yükdaşımaların müddətini 1 aydan 12 günə endirib. Məhz bu da Çinin Azərbaycanın nəqliyyat infrastruktuna marağını artırır.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə Avstriyanın “ÖBB Rail Cargo Group”u və Niderlandın “Cabooter Group”u ilə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Middle Corridor- Orta Dəhliz) vasitəsilə Avropadan Orta Asiyaya və Çinə yük daşımalarının gücləndirilməsi və genişləndirilməsi məqsədi ilə saziş imzalanması da bu baxımdan diqqətə layiqdir. Sazişə əsasən tərəflər Avropada Orta Dəhlizi təşviq edəcək və Avropadakı mövcud yük şəbəkələri, eyni zamanda, logistika mərkəzləri arasındakı əlaqələri gücləndirəcəklər. Avstriyanın Nəqliyyat, İnnovasiya və Texnologiya Federal naziri Andreas Reyxard bildirib ki, bu gün imzalanan saziş, “ÖBB Rail Cargo Group”un Orta Asiya və Çinə doğru genişlənməsinin yeni bir strateji təşəbbüsüdür. Yeni tərəfdaş olan Avstriyanın “ÖBB Rail Cargo Group”u ilə imzalanmış saziş Qərbdən Şərqə doğru Avropanın ən mühüm nəqliyyat qovşaqlarından olan Niderlandın Venlo şəhərindən və Almaniyadan Türkiyəyə, Azərbaycana, Orta Asiyaya və daha sonra isə Çinə qədər uzanacaq nəqliyyat dəhlizinin genişləndirilməsində mühüm mərhələdir.

Avrasiya qitəsinin mərkəzində yerləşən Bakı Limanı Avropa İttifaqı, Orta Asiya və Çin arasında təbii körpü rolunu oynayır. Son 10 ildə Avropa İttifaqı ölkələrindən Çinə ixrac üç dəfə artıb və bu da öz növbəsində Çini Avropa İttifaqının ikinci ən böyük ticarət tərəfdaşı edir, eyni zamanda, Bakı Limanı və Orta Dəhliz, eləcə də “ÖBB Rail Cargo Group” və “Cabooter Group” kimi Avropanın aparıcı nəqliyyat və logistika şirkətləri üçün də geniş imkanlar yaradır. Avropada bir çox filialı, 8 500 nəfər işçi qüvvəsi və illik 2,3 milyard avro dəyərində dövriyyəsi olan “ÖBB Rail Cargo Group” “qoca qitə”nin aparıcı dəmir yolu logistika şirkətlərindən biridir. Şirkət Avropa və Asiyadan kənarda, ölkə daxilində geniş logistika şəbəkəsini idarə edir, hər il 474 milyon sərnişin və 113 milyon ton məhsulu təyinat yerinə çatdırır.

✍ **Zahid Rza,**
***“İki sahil”***



**İki sahil.- 2019.- 29 noyabr.- S.10.**